bp

Kodeksimiz

Biz düzgün addım atırıq

Davranış kodeksimizə xoş gəlmisiniz.

Kodeksimiz ümumi dilimizin əsasını təşkil edir, bp şirkətinin dünyanın hansı hissəsində əməliyyatlar aparmasından və ya işgüzar fəaliyyət ilə bağlı çətinliklərin necə dəyişməsindən asılı olmayaraq, kodeksimiz bizi gündəlik fəaliyyətlərimizə yön verən, etik qərarların qəbulu prosesini dəstəkləyən və düzgün addımlar atmaq üçün standartları müəyyən edən prinsiplər və gözləntilərə sadiq saxlayır.

Kodeksimiz şirkətimizin özülü kimi xidmət edir. Bu, bizim iclas otağından işin icra edildiyi yerə kimi hər yerdə işgüzar fəaliyyəti icra etmə tərzimizdir. Kodeksimiz bp şirkətinin resursları işləyib-hazırlamaq və enerjini istehsal etmək tərzini, yaşadığımız və işlədiyimiz cəmiyyətlərlə qarşılıqlı əlaqə üslubumuzu və əlaqədə olduğumuz əməkdaşlar və insanlar ilə davranış tərzimizi formalaşdırır. Üzləşdiyimiz seçimlərdən əmin olmadığımız və ya onlar barədə narahat olduğumuz bütün hallarda kodeksimiz köməyimizə çatır.

Bundan əlavə, kodeksimiz həm şirkət, həm də fərd kimi «Biz kimik» prinsipinin özülünü təşkil edir. Bu, bizim məqsədimizə doğru irəliləmək, başqalarının qayğısına qalmaq və müvəffəqiyyət üçün çalışmaq tərzimizdir- yəni düzgün yoldur.

Son olaraq, kodeksimiz hamının öz fikrini söyləmək hüququna malik olduğu bir mühit yaratmağa kömək edir. Təzyiq tədbirləri qorxusu olmadan ideyaları paylaşmaq, suallar vermək, səhvləri qəbul etmək, rəy bildirmək və narahatlıqları dilə gətirmək üçün. Kodeksdə qeyd edilən məlumatvermə kanallarımız sizin üçün əlçatandır. Bu vasitənin Menecer, dəstək məsləhətçisi ilə danışmaq və ya OpenTalk xətti ilə əlaqə yaratmaq olmasından asılı olmayaraq, sizin üçün ən rahat olan variantı seçin. Təhlükəli, qanunsuz və ya kodeksimizə uyğun gəlməyən bir hal müşahidə etsəniz və ya belə təcrübə ilə qarşılaşsanız, bu barədə məlumat vermək öhdəliyi daşıyırsınız. bp sizə qulaq asacaq- bp bununla bağlı tədbir görəcək.

Hər hansı siyasət və ya digər tələblər kimi, kodeksimiz də yalnız onu oxuduğumuz, başa düşdüyümüz və ondan sağlam mühakiməyə əsasən istifadə etdiyimiz zaman effektiv olur. Mən, eləcə də direktorlar şuramızın və liderlik komandamızın hər bir üzvü kodeksimizdə müəyyən edilmiş standartlara əsasən məsuliyyət daşıyırıq. Sizin də məsuliyyət daşımağınızı gözləyirik və məsuliyyət daşıdığınızı bilirik.

Kodeksimizdən bələdçi kimi istifadə etməklə biz birlikdə daha güclü bir bp yaradırıq.

Albert Manifold
Sədr

Carol Howle
Müvəqqəti baş icraçı direktor

Kodeksimiz "Biz kimik" konsepsiyamızın və gördüyümüz hər bir işin əsasında durur.

Təhlükəsizliyi hər şeydən üstün tuturuq; təhlükəsizliklə bağlı liderlik prinsiplərimizi həyata keçiririk və Əməliyyatların idarə olunması sistemimizin qaydalarına əməl edirik. Biz etik qərarlar qəbul edir, məsuliyyətli hərəkət edir və bütün tətbiq olunan qanunlara əməl edirik.

Kodeksimiz bizi düzgün olmayan bir şeylə qarşılaşdığımız zaman bu barədə fikrimizi açıq şəkildə ifadə etməyə, məsələ qaldırılan zaman isə dinləməyə və müvafiq addımı atmağa yönləndirir və bizi dəstəkləyir.

Biz "müvəffəqiyyət üçün çalışsaq" da, bunu nəyin bahasına olursa olsun etmirik; müvəffəqiyyəti düzgün yolla qazanmaq üçün bp şirkəti olaraq birlikdə məqsədimizə doğru irəliləməklə və başqalarının qayğısına qalmaqla düzgün addımı atırıq.

Biz kimik

Məqsədimizə doğru irəliləyirik

Təhlükəsizlik hər şeydən əvvəl gəlir

Real və virtual dünyada – bir-birinizin və şirkətimizin qayğısına qalın

Müsbət təsir yaradın

İşlədiyimiz hər yerdə – və əməkdaşlıq etdiyimiz hər bir şəxs ilə

Doğru olanı edin

Hər zaman kodeksimizə əməl edin

Müvəffəqiyyət üçün çalışırıq

Rəqabəti unutmayın

Hər zaman bizdən yaxşı kimsə olur – biz müxtəlif fikirlərin axtarışındayıq və onlardan öyrənirik

Təkmilləşməyə davam edin

Daha çevik, daha rəqəmsalyönümlü olun və vəsaitimizi daha səmərəli şəkildə xərcləyin

Məsuliyyətli olun

Biz vədlərimizə əməl edirik. Bunu edə bilmədikdə, yaxud səhvlər etdikdə isə məsuliyyəti üzərimizə götürürük

Başqalarının qayğısına qalırıq

Mehriban olun

Birlikdə işlədiyiniz şəxsləri tanıyın, onlarla həqiqətən maraqlandığınızı göstərin, onlara dəstək olun

Prioriteti komandaya verin

Eqoist davranmayın, inklüziv olun, əməkdaşlığa və səmimi rəyə açıq olun

Özünüzü başqalarının yerinə qoyun

Xüsusilə tərəfdaşlarımız, təchizatçılarımız və müştərilərimizdən onlara necə kömək edə biləcəyimizi soruşun

Düzgün addımın atılması – qərarı dəstəkləmə vasitəniz

Mürəkkəb bir qərar verməli olduğunuza görə narahatsınız və ya çətinlik çəkirsiniz? Aşağıdakı suallardan bəziləri, yaxud da hamısı köməyinizə çata bilər:

1. **Qərarınız qanuna, kodeksimizə və "Biz kimik" konsepsiyasına uyğun gəlir?**
   Kodeksimizi, prinsiplərimizi oxuyun və bp şirkətinin müvafiq tələblərini nəzərə alın.
2. **Qərarınızın hansı potensial təsirləri var?**
   Qərarınızın bugün və ya uzunmüddətli perspektivdə kimlərə və ya nələrə fayda verə yaxud zərər vura biləcəyini nəzərdən keçirin.
3. **Hamı oxşar qərar qəbul etsə nə baş verərdi?**
   Qərar çoxsaylı komanda və ya bizneslər boyunca verilibsə, onun daha geniş təsirlərini nəzərdən keçirin.
4. **Sizə təsir edə biləcək qərəzli mövqe və ya təzyiqlərin olub-olmadığını nəzərə almısınızmı?**
   Bir az vaxt ayırıb düşünün.
5. **Keçmişdə öyrəndiklərinizi nəzərə almısınızmı?**
   Bacarırsınızsa, onları tətbiq edin.
6. **Qərarınız ictimaiyyətə açıqlansa və ya xəbərlərdə müzakirə olunsa, həmin qərara sadiq qala bilərdinizmi?**
   Özünüzü başqalarının yerinə qoyun – şirkətimizin işçilər, müştərilər, tərəfdaşlar və ictimaiyyət kimi maraqlı tərəflərinin necə reaksiya verə biləcəyi barədə düşünün.

Şübhəniz varsa, qərarınızı sınaqdan keçirin! Hələ də özünüzü narahat hiss edirsinizsə və ya arxayın deyilsinizsə, qərarınızı sınaqdan keçirin. Bunu fərqli fikrə sahib ola biləcək bir şəxs də daxil olmaqla, birbaşa meneceriniz və ya güvəndiyiniz həmkarınızla edə bilərsiniz.

Siz tək deyilsiniz – müvafiq sahə üzrə mütəxəssislər və məlumatvermə (fikrini bildirmə) kanallarımız həmişə hazır vəziyyətdədir. Yadda saxlayın – bp istənilən növ təzyiq tədbirlərini yolverilməz hesab edir.

bp şirkətinin tələbləri və yardımçı resursları

"Biz kimik"

Qərarvermə vasitəsi

Öhdəliyimizi və fikrimizi açıq şəkildə bildirmə tərzimiz

06 Öhdəliyimiz
06 Kodeksimizə əməl etməli olan şəxslər
06 İşləri görmə tərzimiz görülən iş qədər önəmlidir
07 Fikrini açıq şəkildə bildirmək və OpenTalk xətti
07 Məlumatvermə kanallarımız
07 Narahatlıq doğuran məqamları və araşdırmaları necə idarə edirik
07 Təzyiq tədbirlərinin qəbuledilməzliyi

Təhlükəsizlik və davamlılıq

09 Təhlükəsiz və etibarlı əməliyyat
09 Davamlılıq çərçivəmizin təmin edilməsi

Əməkdaşlar

11 Müxtəliflik, ədalətlilik və inklüzivlik
11 Ayrı-seçkilik və qısnama olmayan iş yeri

Biznes tərəfdaşları

13 Təchizatçılar və biznes tərəfdaşları ilə yaxşı münasibətlər qurun və onları qoruyub saxlayın
13 Rüşvətxorluq və korrupsiyaya qarşı kəskin mövqe nümayiş etdirin
13 Hədiyyələri və əyləncəni müvafiq şəkildə mübadilə edin
14 Rəqabət əleyhinə davranışlara yol verməyin
14 Maraqların toqquşması hallarının fəal şəkildə idarə edin hallarını
14 Beynəlxalq ticarət qanunlarına hörmətlə yanaşın
14 Çirkli pulların yuyulmasının qarşısını alın

Hökumətlər və icmalar

16 İnsan hüquqları və ictimaiyyətin iştirakı
16 İctimaiyyətlə əlaqələr fərdi məlumatlar
16 Nəzarətimizdə olan şəxsi məlumatlar
17 Rəqəmsal texnologiyadan etik istifadə qaydaları
17 Siyasi fəaliyyətlərlə bağlı mövqeyimiz

Aktivlər və maliyyə sahəsindəki dürüstlük

19 Dəqiq və tam məlumatları qeydə alın və saxlayın
19 bp aktivlərini qoruyun
19 Daxili məlumatlara əsaslanan sövdələşmədə iştirak etməyin
20 Lüğət

Biz komandanı
hər şeydən üstün
tuturuq

Öhdəliyimiz

Etibarlı bir şirkət olmaq və məqsədimizə nail olmaq üçün hər birimiz hər gün atdığımız hər bir addımın və dediyimiz hər bir sözün ən yüksək standartlara uyğun olmasına çalışmalıyıq. Kodeksimiz bp üçün həmin standartları təmin edir.

Kodeksimizə əməl etmək məcburi xarakter daşıyır. Hər bir işçi kodeksimizi oxuyaraq başa düşməli, onun prinsiplərini tətbiq etməli və bütün müvafiq gözləntiləri təqib etməlidir. Kodeksimizə bp şirkətinin digər müvafiq tələbləri (bp siyasətləri, bp prosedurları və bp təcrübələri), təhlükəsizliklə bağlı liderlik prinsiplərimiz və ƏİS qaydalarına giriş üçün linklər daxildir. Siz bu bp tələblərindən xəbərdar olmalı və rolunuza uyğun gələn qaydada onlara əməl etməlisiniz. bp şirkətinin hər hansı tələbinin pozulması bizim kodeksimizin pozulması hesab edilir.

Kodeksimiz bp-nin düzgün olduğuna inandığımız şeylər üzrə öhdəlik götürdüyünü göstərən rəsmi bir sənəddir. Bu, həmçinin sizin məlumatlı olmağınıza, etik qərarlar qəbul etməyinizə və düzgün addım atmağınıza kömək etmək üçün dəyərli bir mənbədir. Bu hər şeyi necə etdiyinizi, eləcə də nə etdiyinizi düşünmək və nəsə düzgün olmayanda bunu bildirmək mənasına gəlir.

Heç bir davranış kodeksi bütün vəziyyətləri əhatə edə bilməyəcəyinə görə bp şirkəti kodeksimizə uyğun olaraq, eləcə də "Biz kimik" konsepsiyası və təhlükəsizliklə bağlı liderlik prinsiplərimizə əməl etməklə məntiqə uyğun davranacağınıza inanır. Suallarınız və ya narahatlıqlarınız olan zaman bu barədə məlumat vermək öhdəliyi daşıyırsınız.

Biz bir çox ölkələrdə fəaliyyət göstəririk. Yerli qanunlar, qaydalar və ya ənənələrin bizim kodeksimizlə ziddiyyət təşkil etdiyi hallarla üzləşə bilərik. Tətbiq olunan qanun və ya qayda və kodeksimiz arasında ziddiyyət və ya fərq olduğu zaman ən ciddi standartı tətbiq etməlisiniz. Kodeksimizin prinsiplərini pozan qaydalara əməl etməyin. Şübhəniz varsa, ENTUƏŞ, İKM və ya hüquq şöbəniz ilə əlaqə saxlayın.

Kodeksimizə əməl etməli olan şəxslər

Kodeksimiz bp-nin bütün işçilərinə, vəzifəli şəxslərinə və idarə heyətinin üzvlərinə şamil olunur. Gözləntilərimiz həm real, həm də virtual dünya üçündür və əgər davranışınız bp-nin tələbini pozursa və ya iş yerinə mənfi təsir göstərirsə, yaxud da bp-nin qanuni biznes maraqlarına xələl gətirirsə, davranışınızın kodeksimizi pozması üçün onun məhz iş yerində baş verməsi önəmli deyil.

Kodeksimizə əməl edilməməsi əmək müqaviləsinə xitam verilməsi də daxil olmaqla, intizam tədbirləri ilə nəticələnə bilər.

Biznes tərəfdaşları, o cümlədən idarə edilən birgə müəssisələr və üçüncü tərəflər öz davranışları ilə bizim nüfuzumuza birbaşa təsir göstərə bilərlər. Biz əməyin təhlükəsizliyi, etik normalar və tələblərə uyğunluq üzrə götürdüyümüz öhdəliyi bizimlə paylaşan biznes tərəfdaşları ilə işləmək istəyirik.

Biz bütün podratçılarımızdan və onların işçilərindən kodeksimizə uyğun şəkildə fəaliyyət göstərmələrini gözləyirik və onları buna dəvət edirik. Biz onların bizim gözləntilərimizə cavab vermədiklərini, yaxud öz müqavilə öhdəliklərinə riayət etmədiklərini düşündüyümüz hallarda müvafiq tədbirlər görəcəyik.

İşləri görmə tərzimiz görülən iş qədər önəmlidir

İşçinin öhdəlikləri

- **"Biz kimik" konsepsiyası və təhlükəsizliklə bağlı liderlik prinsiplərimizlə yönləndirilən kodeksimizi oxuyub anlayın və ona uyğun davranın.**
- **Tətbiq olunan qanunların, qaydaların və ya kodeksimizin pozulması hallarından xəbər tutduqda bu barədə fikrinizi bildirin**, suallar verin və narahatlıq doğuran məqamları qeyd edin. bp təhqiqatı, yaxud auditə cəlb edildikdə tam şəkildə əməkdaşlıq edin.
- **Rolunuzla bağlı riskləri başa düşün və idarə edin**, bp şirkətinin bütün müvafiq tələblərinə əməl edin və sizin üçün təyin edilmiş bütün məcburi təlimləri tamamlayın.
- **Kodeksimizə uyğun fəaliyyət göstərdiyinizi sübut edən** illik yoxlamanı tamamlayın.

Birbaşa menecer olduğunuz halda əlavə öhdəliklériniz

- **"Biz kimik" konsepsiyası ilə bağlı** öz komanda üzvləriniz üçün nümunə olun və qayğı, hörmət, inklüzivlik və ədalətə əsaslanan bir mühit yaradın.
- **Komandanızı fikrini bildirməyə (məlumatverməyə) həvəsləndirin** və əgər məlumat versələr, heç kimin tənqidə görə təqiblə üzləşməməsini təmin etmək üçün dinləməklə, cavab verməklə və öz vəzifənizi yerinə yetirməklə onlara dəstək olacağınızı göstərin.
- Kodeksimizin gözləntiləri, müvafiq risklər və tələblər, eləcə də məcburi təlimin vaxtında tamamlanmasının vaciblyi barədə komandanızla müntəzəm müzakirələr aparmaqla **uyğunluq və risk idarəetməsini təşviq edin.**
- **Düzgün davranışları nəzərə alın,** pis davranışları idarə edin və insanlardan məsuliyyət tələb edərkən uyğun davranış nümayiş etdirin.

Mehriban *olun*

bp şirkətinin tələbləri və yardımçı resursları

Öhdəliklərimiz

Fikrinizi açıq şəkildə bildirin

Biz başqalarının qayğısına qalırıq. Təhlükəli, qanunsuz və ya kodeksimizlə uyğun gəlməyən bir şeydən xəbərdar olduğumuz zaman bu barədə fikrimizi bildirmək öhdəliyi daşıyırıq. Təhlükəsizliyə dair liderlik prinsiplərimizə uyğun olaraq biz açıq danışmağı təşviq edir və bunu qəbul edirik, eləcə də, səhvlərin niyə baş verdiyini bilmək və dəstəkləyici reaksiya vermək istəyirik. Narahat olduğunuz məqam barədə məlumat vermək və ya sual vermək istəyirsinizsə, məlumatvermə (fikrini bildirmə) kanallarımız sizin xidmətinizdədir. Bütün narahatlıq doğuran məqamlara ciddi şəkildə yanaşılır və onlar bp-nin narahatlıq doğuran məqamların idarə edilməsi prosesinə uyğun olaraq məxfi şəkildə emal olunur.

Biz həm də başqa biri fikrini bildirəndə onu dinləməli, üzərimizə düşəni etməli və bundan nəticə çıxarmalıyıq. Sizin qarşınızda hər hansı narahatlıq doğuran məsələ qaldırıldığı zaman nə edəcəyinizdən əmin olmadıqda, dsətək üçün məlumatvermə (fikrini bildirmə) kanallarımıza müraciət edə bilərsiniz.

OpenTalk xətti

bp şirkətinin qlobal yardım xətti olan OpenTalk narahatlıq doğuran məqamlar barədə məlumat vermək və ya kodeksimiz barədə suallarınıza cavab tapmaq üçün məxfi bir yoldur. O, müstəqil bir şirkət tərəfindən idarə olunur, həftənin hər günü gündüz və ya gecə xidmətinizdədir və 75-dən çox dildə sizə kömək göstərə bilər. Podratçılar, tərəfdaşlar, təchizatçılar və müştərilər daxil olmaqla hər kəs OpenTalk xəttindən istifadə edə bilər. Bir çox yerdən OpenTalk xətti ilə anonim şəkildə əlaqə saxlaya bilərsiniz.

Məlumat verdiyiniz istənilən hadisə qanun və qabaqcıl biznes təcrübələrinə uyğun olaraq, mümkün olduğu dərəcədə gizli saxlanılacaq.

bp şirkətinin tələbləri və yardımçı resursları

Məlumatvermə və OpenTalk xətti

Məlumatvermə (fikrini bildirmə) kanallarımız

Birbaşa meneceriniz və ya başqa menecer ilə əlaqə saxlayın

Yaxud
ENTUƏŞ, İKM, Hüquq şöbəsi, ENTU, ƏT və ƏRT kimi müvafiq məsləhətçiniz ilə əlaqə saxlayın

Yaxud
OpenTalk xətti ilə əlaqə saxlayın

Yerli telefon nömrələri də daxil olmaqla daha çox məlumat üçün onebp ünvanında "OpenTalk" üzrə axtarış edin

+44 (0) 800 066 8331 Birləşmiş Krallıq

+1 800 225 6141 ABŞ

+1 704 540 2242 zənginizi qəbul edəcək "zəng edən üçün ödənişsiz zəng" nömrəsi

Narahatlığınızı həm də aşağıdakı veb-sayt vasitəsilə bildirə bilərsiniz:
www.opentalkweb.com

Narahatlıq doğuran məqamları və araşdırmaları necə idarə edirik

Düzgün addım atmaq, barəsində məlumat verilən narahatlıq doğuran məqamlara qulaq asmaq və onları qiymətləndirmək deməkdir. Müvafiq hallarda BD komandamız (EN və TU bölməsinə aiddir) kodeksimizin potensial pozulması hallarını araşdıracaq.

Təzyiq tədbirlərinin qəbul edilməzliyi

bp təzyiq tədbirlərini qəbul etmir.

Biz təzyiq tədbirlərini pis davranış kimi qiymətləndiririk. Təzyiq tədbirləri təhdidlər, hədə-qorxu, kənarlaşdırma, alçaltma və məsələnin pis niyyətlə qaldırılması kimi bir çox formada özünü büruzə verə bilər.

Əgər siz özünüzün və ya tanıdığınız başqa bir şəxsin təzyiq tədbirləri ilə üzləşdiyini düşünürsünüzsə, məlumatvermə kanallarımızdan biri ilə əlaqə saxlayın.

Qiymətləndiririk

Ümumiyyətlə narahatlıq doğuran məqamla bağlı məlumat verildiyi zaman qiymətləndirmə komandası (o cümlədən, ENTU, İKM və ENTUƏŞ) narahatlıq doğuran məqamın idarəetmə tədbiri və ya araşdırma yolu ilə ələ alınacağına qərar verəcək. Proses məlumatın məhdud açıqlanma prinsipinə uyğun olaraq həmişə məxfi qalacaq.

Həll edirik

İdarəetmə tədbiri kimi ələ alınarsa, biznes müəssisəsi iştirakçı tərəfləri təlimatlandıracaq.

Əgər araşdırma aparmağa qərar versək, BD qərar qəbul etmək üçün müvafiq faktları əldə etmək və təhlil etməklə dəqiq və vaxtında araşdırmanı icra edəcək.

Hərəkətə keçirik

Biznes müəssisəsindən təyin edilmiş bir şəxs nəticələri müzakirə edərək atılmalı addımı müəyyən edəcək. Buraya bp şirkətinin intizam tədbirlərinə dair siyasətinə uyğun olan intizam tədbiri daxil ola bilər. Narahatlıq doğuran məqam barədə məlumat verən şəxsə bu barədə rəy bizim məxfilik prinsiplərimizə uyğun olaraq təmin edilir.

Təhlükəsizlik hər şeydən
əvvəl gəlir
PETZL
bp
BP Wind Energy

Prinsiplərimiz

Təhlükəsizlik hər şeydən əvvəl gəlir. Heç nə əməkdaşlarımızın və bizimlə işləyən şəxslərin təhlükəsizliyindən daha önəmli deyil.
Biz ətraf mühiti qorumaq, habelə öz məqsədimizə doğru və davamlılıq çərçivəmiz üzrə irəliləmək üçün səylə çalışırıq.

bp-nin tələbləri və yardımçı resursları

Təhlükəsiz və etibarlı əməliyyat
Davamlılıq çərçivəmizin təmin edilməsi
– Əməliyyat idarəetmə sistemi
– Təhlükəsizliklə bağlı liderlik prinsipləri

Gözləntilərimiz

Təhlükəsiz və etibarlı əməliyyat

Biz ayıq-sayıq, nizam-intizamlı olmalı və həmişə bir-birimizin qayğısına qalmalıyıq. Hər birimiz təhlükəsiz şəkildə işləmək və təhlükəsizliklə bağlı liderlik prinsiplərimizə əməl etmək üçün məsuliyyət daşıyırıq. Təhdidlər, hədə-qorxu və zorakılıq hallarına yol verilməyəcək.

Təhlükəsizliklə bağlı liderlik prinsiplərimiz

Birlikdə biz...

- Bir-birimizə həqiqi qayğı göstəririk
- Təhlükəsizliyə yönəltdiyimiz diqqəti azaltmayacağıq
- Fikir bildirməyi təşviq **edir və qəbul** edirik
- İşin əsl gedişatını **başa düşürük**
- Səhvlərin niyə baş verdiyini öyrənir və dəstəkləyici **şəkildə** reaksiya veririk

Bizim SƏTTƏM üzrə gözləntilərimiz hər bir sahə və ya biznes üçün uyğun olmaqla və əməliyyat subyektlərimiz üçün ƏİS-in sistemli şəkildə tətbiq edilməsi yolu ilə təyin edilmişdir.

- İcra etmək səlahiyyətiniz olmayan işləri öz öhdənizə götürməyin.
- Təhlükəli olduğunu hesab etdiyiniz halda öz işinizi və ya digərlərinin işini dayandırmalısınız.
- Fəaliyyət göstəricinizə spirtli içki, dərman vasitələri (reseptlə və ya reseptsiz buraxılan dərmanlar daxil olmaqla), yaxud yuxusuzluq kimi amillərin mənfi təsir göstərmədiyindən əmin olun.
- Təhlükəli və ya qeyri-sağlam iş mühiti əlamətləri müşahidə etdiyiniz zaman bu barədə məlumat verin. Məlumat verən digər şəxsləri dinləyin.
- Qəza, xəsarət, xəstəlik və ya təhlükəli vəziyyət barədə dərhal məlumat verin. Heç vaxt başqa kimsənin risk və ya problem barədə mütləq məlumat verdiyini və ya verəcəyini ehtimal etməyin.
- İşlədiyiniz yerdə tətbiq olunan fövqəladə hal prosedurlarından xəbərdar olun.
- Podratçılar və birgə işlədiyimiz digər şəxslərin müvafiq SƏTTƏM tələblərinə əməl etmələrinə nail olun və onları buna həvəsləndirin.

Davamlılıq çərçivəmizin təmin edilməsi

Hər birimizin davamlılıq çərçivəmizi dəstəkləmək üçün – sıfır karbon emissiyasına nail olmaq, insanların həyat səviyyəsini inkişaf etdirmək və planetin qayğısına qalmaq üçün öz rolu var.

- Davamlılıq çərçivəmizi təmin etmək üçün öz rolunuzu icra edin.
- bp şirkətinin ekoloji və sosial siyasətləri və metodlarını anlayın və onlara uyğun şəkildə davranın.

Biz özümüzü
basqa insanların
yerinə qoymuq

Prinsiplərimiz

Əməkdaşlarımız bp şirkətinin uğurunun əsasını təşkil edir. Biz komanda ruhunu prioritet tuturuq. Biz bir-birimizə hörmət edirik və bir-birimizin qayğısına qalırıq. Qayğıkeş davrandığımız və özümüzü başqalarının yerinə qoyduğumuz zaman biz həm fərd, həm də şirkət olaraq müvəffəqiyyət qazanırıq.

Məqsədimiz işçi qüvvəmiz, müştərilərimiz və təchizatçılarımız üçün daha çox müxtəliflik, ədalətlilik və inklüzivlik təmin etməyə nail olmaqdır.

Biz məlumat verən həmkarlara qarşı hər hansı formada təzyiq tədbirlərinə icazə verməyəcəyik.

Kodeksimizdəki gözləntilər həm real, həm də virtual dünya üçündür. Kodeksimizi pozmaq üçün davranışınızın məhz iş yerində baş verməsi vacib deyil.

bp şirkətinin tələbləri və yardımçı resursları

Müxtəliflik, ədalətlilik və inklüzivlik

Ayrı-seçkilik və qısnaya olmayan iş yeri

– Siyasət: Müxtəliflik və inklüzivlik
– Siyasət: Kadrların cəlb edilməsi
– Siyasət: Fəaliyyət göstəricisinin yaxşılaşdırılması
– Siyasət: İntizam tədbiri

Gözləntilərimiz

Müxtəliflik, ədalətlilik və inklüzivlik

Biz birlikdə işlədiyimiz hər kəsə ədalət və hörmətlə yanaşır, onların da bu cür davranmasını gözləyirik. Biz hər bir şəxsin bp şirkətinə gətirdiyi bənzərsiz töhfəni qiymətləndiririk və hamı üçün ədalətli imkanlara nail ola bilmək məqsədilə öz əməkdaşlarımızın qayğısına qalmaq üçün ədalətli yanaşma tətbiq edirik. Müxtəlifliyə malik və inklüziv komandaların daha uğurlu olduğunu və öz fərqliliklərini müxtəlifliyə malik olmayan komandaları üstələmək üçün istifadə edə bildiklərini bilirik.

- İnklüzivliyə əsaslanan mədəniyyəti qoruyub saxlamaq üçün öz rolunuzu icra edin və həmkarlarınızın ehtiyaclarını başa düşməklə "başqalarının qayğısına qalın".
- Müxtəlifliyə malik və inklüziv mühitlər və təcrübələr yaratmağa kömək edin.
- Həmkarlarınızın fərqli inancları və fikirlərinə hörmətlə yanaşın.
- Mədəni fərqliliklərə hörmətlə yanaşın.
- Fikrini açıq bildirənləri həvəsləndirin və onlara qulaq asın.

Ayrı-seçkilik və qısnama olmayan iş yeri

Ayrı-seçkilik

Biz iş yerlərimizdə, yaxud işəgötürmə, inkişaf və karyera irəliləyişi zamanı hər cür ədalətsiz ayrı-seçkiliyə qarşıyıq.

- Mükafat və digər üstünlüklər də daxil olmaqla, işə aid qərarlarınızı nailiyyətlərə əsaslandırın.
- İrq, etnik mənsubiyyət, milli mənşə, din, cins, yaş, cinsi orientasiya, cinsi kimlik, ailə vəziyyəti, əlillik, veteran statusu və ya müvafiq qanunlarla qorunan digər hər hansı xüsusiyyətə əsasən ayrı-seçkilik etməyin.

Qısnama

Biz istər fiziki, istər şifahi, istərsə də qeyri-şifahi hər hansı formada təhqir və ya qısnama hallarını yolverilməz hesab edirik. Buraya hər hansı formada cinsi qısnama da daxil olmaqla təhqiredici, hədə-qorxulu və ya alçaldıcı hesab oluna biləcək hər hansı arzuolunmaz davranış daxildir. Ayrı-seçkilik hərəkəti də qısnama və ya sataşma hesab edilə bilər.

- Hamıya hörmətlə yanaşın.
- Hər cür qısnama formalarından azad bir iş mühiti yaratmağa kömək edin.
- Başqaları tərəfindən təhqir və ya qısnama hesab edilə biləcək davranış nümayiş etdirməyin.
- Təhqiredici mesajlar, alçaldıcı ifadələrdən istifadə etməyin və ya münasib olmayan zarafatlar etməyin. Buraya cinsi xarakterli şərhlər və ya hər hansı cinsi cəhətdən alçaldıcı hesab olunan davranış daxildir.
- Bir-birinizin qayğısına qalın və münasib olmayan davranışa qarşı mübarizə aparın.

Ayrı-seçkilik, qısnama və sataşma halları barədə birbaşa menecerinizə, İKM, Hüquq şöbəsi, ENTU və ya OpenTalk xəttinə məlumat verilməlidir.

Biz davamlı təkmilləşmə
ilə bağlı öhdəlik
götürmüşük

Prinsiplərimiz

Biz biznesi düzgün yolla icra etməklə və rəqabətdən xəbərdar olmaqla müvəffəqiyyət qazanırıq. Etik və qanuni biznes metodları üzərində qurulmuş güclü fəaliyyət göstəricilərinə əsaslanaraq inkişaf etməyə davam edirik.

Biz biznes tərəfdaşlarımızla dürüstlük, hörmət və məsuliyyəti əsas götürərək işləyirik. Biz başqalarının etibar edə biləcəyi bir şirkətik.

Kodeksimizin bu bölməsindəki tələblərin çoxu mürəkkəbdir və konkret faktlara əsaslanır. bp şirkətinin, işçilərinin bu risk sahələrinin bəzilərinə məruz qalmasını qiymətləndirmək və müəyyən etmək, eləcə də müvafiq təlimi təmin etmək üçün prosesi mövcuddur. Əgər sualınız varsa və ya hansısa situasiyada necə davranmalı olduğunuzdan əmin deyilsinizsə, ENTUƏŞ, Hüquq şöbəsi, yaxud ENTU ilə əlaqə saxlayın.

bp şirkətinin tələbləri və yardımçı resursları

Təchizatçılar və biznes tərəfdaşları

Rüşvətxorluq və korrupsiya ilə mübarizə

Hədiyyələr və əyləncə

– Siyasət: Rüşvətxorluq və korrupsiya, çirkli pulların yuyulması və vergidən yayınma halları ilə mübarizə
– Prosedur: Qarşı tərəf barədə maksimum məlumat toplama və riskin idarə olunması

Gözləntilərimiz

Təchizatçılar və biznes tərəfdaşları ilə yaxşı münasibətlər qurun və onları qoruyub saxlayın

Təchizatçılarımız və biznes tərəfdaşlarımız bizim iş aparmaq və maraqlı tərəflərin gözləntilərini qarşılamaq qabiliyyətimiz üçün çox vacibdir. Buna görə də, biz onları ehtiyatla seçirik, obyektiv seçim prosesindən istifadə edirik və qarşı tərəf barədə maksimum məlumat toplama prosesini həyata keçiririk.

Biz əməyin təhlükəsizliyi, etik norma və tələblərə uyğunluq üzrə götürdüyümüz öhdəliyi bizimlə paylaşan şirkətlər ilə işləmək istəyirik.

- Hüquq və etika qaydaları ilə bağlı riskləri qiymətləndirmək üçün qarşı tərəflər barədə maksimum məlumat toplama prosesində iştirak edin. Qarşı tərəf barədə maksimum məlumat toplama prosesinə rüşvətxorluq, korrupsiya, ticarət sanksiyaları və çirkli pulların yuyulması ilə bağlı risklərin qiymətləndirilməsi daxildir.
- Zəruri hallarda müqavilə öhdəliklərini razılaşdırmaqla müvafiq gözləntilərimizi təchizatçılar və biznes tərəfdaşlarına çatdırın.
- Xüsusən təchizatçılar, agentlər, birgə müəssisə tərəfdaşları və hökumətlər daxil olmaqla qarşı tərəflər üçün işgüzar fəaliyyətinizdə tətbiq olunan bp tələblərindən xəbərdar olun və onlara əməl edin.
- Təchizatçı və ya biznes tərəfdaşının müvafiq qanunlar yaxud öz müqavilə öhdəliklərinə əməl etməməsini göstərən hər hansı əlamət barədə məlumat verin.

Rüşvətxorluq və korrupsiyaya qarşı kəskin mövqe nümayiş etdirin

Biz biznes fəaliyyətimizdə istənilən formada təzahür edən rüşvətxorluq və korrupsiya hallarına icazə vermirik.

- Rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə qanunları, qaydaları və bp şirkətinin rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə tələblərinə əməl edin, eləcə də rüşvətxorluq və korrupsiyanı bütün dünyada aradan qaldırmaqla bağlı səylərə dəstək olun.
- Biznes tərəfdaşlarımızın bizim tələblərimizi paylaşdığından və onlara əməl etdiyindən əmin olmaq üçün işləyin.
- Rəsmiləşdirməyə kömək üçün ödənişlər də daxil olmaqla, rüşvət, qeyri-qanuni yolla əldə edilmiş pulun bir hissəsinin şərikə verilməsi və ya hər hansı digər qeyri-qanuni ödəniş təklif etməyin yaxud qəbul etməyin.
- Kitablar və sənədlərdə dəqiq olun ki, ödənişlər dürüst şəkildə təsvir edilsin və şirkətin maliyyə vəsaitləri qeyri-qanuni məqsədlər üçün istifadə edilməsin.

Hədiyyələri və əyləncəni müvafiq şəkildə mübadilə edin

Məqsəd qərara təsir göstərmək və ya əvəzində biznesdə üstünlük, xidmətlər və ya məxfi məlumat almaqdırsa, biz hədiyyə yaxud əyləncə xidmətlərini qəbul etmirik və ya təmin etmirik.

- Bizim hədiyyələr, əyləncə və qonaq etmə üzrə tələblərimizə, o cümlədən hədiyyələr, əyləncə və qonaq etmənin qeydə alınması üçün ENTU reyestri tələblərinə əməl edin.
- bp şirkətinin hədiyyələr, əyləncə və qonaq etmə ilə bağlı tələbləri ilə hədiyyələr və əyləncənin qəbul edilməsi ilə bağlı kənarda tətbiq olunan tələblər arasında ziddiyyət yaranarsa, ən ciddi tələbə əməl edin.
- Heç vaxt rüşvət kimi qəbul edilə biləcək yaxud nalayiq, seksual məqsədli və ya başqa cür qeyri-münasib ola biləcək hədiyyə və ya əyləncə vasitəsini təklif etməyin, verməyin, ya da qəbul etməyin.
- Hökumət rəsmiləri üçün səyahət xərclərini ödəməzdən, yaxud onların səyahətləri ilə əlaqədar gündəlik xərcləri ödəməyə razılıq verməzdən əvvəl Hüquq şöbəsinin təsdiqini alın.

Gözləntilərimiz (davamı)

Rəqabət əleyhinə davranışlara yol verməyin

Biz rəqabət və antiinhisar qanunlarına əməl edirik. Bunlar rəqabətə zidd davranışı qadağan edən və istehlakçıları qoruyan qanunlardır.

- Rəqiblərlə qiymətləri razılaşdırmaq, qiymət təkliflərini saxtalaşdırmaq, müştəriləri bölüşmək yaxud təchizatı məhdudlaşdırmaq üçün istənilən formada razılıq və ya anlaşmaya daxil olmayın.
- Real yaxud potensial rəqibin kim olduğunu (məsələn, bunlara Fəaliyyətsiz Müştərək Müəssisələr daxil ola bilər) və rəqabət baxımından həssas məlumatların mübadiləsi ilə bağlı məhdudiyyətləri başa düşün.

bp şirkətinin tələbləri və yardımçı resursları

Rəqabət və antiinhisar

Maraqların Toqquşması

Beynəlxalq ticarət qaydaları

Çirkli pulların yuyulmasına qarşı mübarizə

– Siyasət: Rəqabət qanunu
– Siyasət: Maraqların Toqquşması
– Siyasət: Beynəlxalq ticarət qaydaları
– Prosedur: Ticarət sanksiyaları
– Prosedur: İxrac Üzərində Nəzarət Vasitələri
– Prosedur: Boykot əleyhinə qaydalar

Maraqların toqquşması hallarının idarə edilməsi

Maraqların toqquşması maraqlarınız yaxud fəaliyyətləriniz bp üçün obyektiv qərarlar qəbul etmək bacarığınıza təsir etdiyi və təsir edirmiş kimi göründüyü hallarda baş verə bilər.

- Maraqların toqquşması baş verə biləcək müxtəlif yollar barədə anlayışınız olsun. Məsələn:
  - Rəqiblər, müştərilər və ya təchizatçılar ilə şirkətdən kənar iş və əlaqələr.
  - Yaxın qohumlarla işləmək.
  - Ödənişinə, işdə irəli getməsinə və ya idarəetmə işlərinə təsir edə biləcəyiniz şəxslə yaxın münasibətlərə malik olmaq.
  - Başqa bir təşkilatın direktorlar şurasında üzv olmaq.
  - Yaxın qohumların investisiyaları da daxil olmaqla, investisiyalar.
- Qərar qəbul edərkən həmişə obyektiv və bp şirkəti qarşısındakı öhdəliklərinizə uyğun hərəkət edin.
- Toqquşma yaxud toqquşma görünüşü yarada biləcək situasiyaların birbaşa menecerinizə açıqlanması və onların ENTU reyestrində qeyd edilməsi daxil olmaqla, bizim maraqların toqquşması üzrə tələblərimizə əməl edin.

Beynəlxalq ticarət qanunlarına hörmətlə yanaşın

Beynəlxalq ticarət qanunları iqtisadi sanksiyalar, idxal və ixrac qanunları və boykot əleyhinə qanunlar da daxil olmaqla müəyyən ölkələr, qurumlar, fərdlər və ya maddələr ilə sövdələşmələri bütövlükdə qadağan edir və ya məhdudlaşdırır.

- Ərazilərində işlədiyimiz bütün ölkələrin müvafiq ticarət qanunlarına əməl edin.
- Sizə və biznes fəaliyyətinizə hansı bp tələblərinin tətbiq edildiyini öyrənin və onlara əməl edin.
- Qanuni olsa da, yüksək risk daşıyan əməliyyatlarda iştirak etsəniz, bp siyasəti və müvafiq qanunlarla uyğunluğu təmin etmək üçün optimal addımlar atmalısınız.
- İdxal və ya ixrac üçün nəzərdə tutulmuş əşyalar (maddi məhsullar və ya proqram təminatı və texnologiya kimi qeyri-maddi məhsullar) əvvəlcədən təsnif edilməli, tələb olunan bütün etiketləmə, sənədləşmə, lisenziya və təsdiqləmələr tamamlanmalıdır.

Çirkli pulların yuyulmasının qarşısını alın

Çirkli pulların yuyulması qeyri-qanuni, qanunsuz davranışla əldə edilmiş əmlakın yer aldığı və ya cinayət və terrorçuluğu dəstəkləyən əməliyyatlarla məşğul olmaqdır.

- Çirkli pulların yuyulması ilə məşğul olmayın və qeyri-qanuni fəaliyyətlərlə məşğul olduğundan şübhələndiyimiz şəxslərlə biznes fəaliyyəti həyata keçirməyin.
- Mürəkkəb və ya qeyri-şəffaf strukturların, yaxud qeyri-müəyyən əmlak mənbələrinin yer aldığı şübhəli əməliyyatlar daxil olmaqla, çirkli pulların yuyulması ilə bağlı hər hansı şübhəli hadisə barədə məlumat verin.
- Heç vaxt vergidən qanunsuz şəkildə yayınmağa çalışan hər hansı tərəfə kömək etməyin.

Biz müsbət təsir
yaradırıq

Prinsiplərimiz

Biz insanların həyatını yaxşılaşdırmaq üçün hökumətlər və icmalarla birlikdə işləyərək müsbət təsir yaratmaq istəyirik. Biz daha təmiz enerjinin, eləcə də insan hüquqları və davamlı yaşayış vasitələrini pozmayan ədalətli enerji keçidinin əhəmiyyətini başa düşürük.

Biz məlumatlardan məsuliyyətlə istifadə edirik və məlumatlarımızı və sistemlərimizi mühafizə edirik və qoruyuruq. Rəqəmsal texnologiyaların icmalarımıza təsiri barədə düşüncəli davranırıq.

bp şirkətinin tələbləri və yardımçı resursları

İnsan hüquqları və ictimaiyyətin iştirakı

İctimaiyyətlə əlaqələr

Şəxsi məlumatlar

– Siyasət: İnsan hüquqları
– Siyasət: Münasibətlər və xarici əlaqələr
– Siyasət: Məlumatların məxfiliyi

Gözləntilərimiz

İnsan hüquqları və ictimaiyyətin iştirakı

İşçilər və icmalarla işləyən və biznes fəaliyyətimizi həyata keçirən zaman düzgün addım atmağa səy göstəririk. Əməkdaşlarımız və biznes müəssisələrimizi başqalarının qayğısına qalmağa və yerli icmanın işlərində iştirak etməyə həvəsləndiririk.

Fəaliyyət göstərdiyimiz hər yerdə müsbət təsir yaratmaq üçün açıq fikirli, etik mövqeni qoruyaraq və müxtəlifliyə, yerli mədəniyyətlərə və adətlərə hörmət edərək etibarlı qonşu olmaq istəyirik. Hər birimiz uşaq əməyi, insan alveri və məcburi əmək də daxil olmaqla insan hüquqları pozuntularının müəyyən edilməsi, qarşısının alınması və aradan qaldırılmasında bir rol oynaya bilərik.

- Məlumatvermə kanallarımız yaxud əmək hüquqları və müasir kölelik halları komandamız vasitəsilə bizim əməliyyatlarımızda yaxud biznes tərəfdaşlarımızın əməliyyatlarında şübhə doğuran hər hansı insan hüquqları pozuntusu barədə məlumat verin.
- İcma təşkilatları yaxud qeyri-hökumət təşkilatlarının (QHT-lər) nümayəndələri ilə danışmazdan əvvəl yerli Əlaqələr və Xarici İşlər komandanıza bu barədə məlumat verin.
- Yalnız müvafiq prosesə əməl olunan və tələb edilən təsdiqlərin yerində olduğu sosial sərmayə qoyma və ya sponsorluq fəaliyyətlərində iştirak edin.

İctimaiyyətlə əlaqələr

İctimaiyyətlə əlaqələrimizin aydın, dəqiq, uyğun və etibarlı olması önəmlidir.

- Yalnız səlahiyyətiniz olduğu hallarda mediaya və ya investisiya bazarı üzvləri ilə danışın; məsləhət üçün müvafiq mətbuat orqanı və ya investorlarla əlaqələr şöbəsi ilə əlaqə saxlayın.
- Xarici təqdimatlar təcrübəmizi başqaları ilə paylaşmağın əla yolu ola bilər, amma hər hansı bir dəvəti qəbul etməzdən əvvəl tələb edilən təsdiqləri əldə etdiyinizdən əmin olun və məzmun üzrə lazımi təsdiqləri əldə edin.
- Əməkdaşlarımızın və ya birgə iş gördüyümüz şəxslərin görə biləcəyi hər hansı bir forumda yazılar dərc edirsinizsə, hörmət prinsipləri əsasında yazın və unutmayın ki, sosial mediadakı yazılarınız və şərhləriniz anonim deyil və iş yerinə və ya bp-nin qanuni biznes maraqlarına, o cümlədən nüfuzumuza mənfi təsir göstərə bilər.

Bizdə olan fərdi məlumatlar

Biz insanların məxfilik hüquqlarına hörmət edirik və işçilərimizin, müştərilərimizin və bp şirkəti ilə birgə fəaliyyət göstərən digər şəxslərin fərdi məlumatlarını mühafizə etmək üçün öhdəlik götürmüşük.

Fərdi məlumatları emal edərkən:

- Onları yalnız qanuni və zəruri məqsədlər üçün toplayın və istifadə edin.
- İnsanlara onların fərdi məlumatlarından necə istifadə edəcəyimizlə bağlı şəffaf məlumat verin.
- Məlumatları etibarlı şəkildə saxlayın və müvafiq texniki və təşkilati tədbirlərdən istifadə edərək onları mühafizə edin.
- Keçərli səbəb olmadan onları başqaları ilə paylaşmayın. Onları paylaşmalı olsanız, müvafiq qoruyucu vasitələrdən istifadə edin.
- Artıq tələb edilmədiyi zaman məlumatları silin.

Gözləntilərimiz (davamı)

Rəqəmsal texnologiyadan etik istifadə qaydaları

Rəqəmsal texnologiyaların işlənib-hazırlanması və ya istifadə edilməsi zamanı ortaya çıxan hər hansı nəzərdə tutulmamış nəticə və həmin texnologiyaların yarada biləcəkləri potensial risklər barədə narahatıq.

- İşləyib-hazırladığınız və ya istifadə etdiyiniz hər hansı rəqəmsal tenologiya ilə bağlı etik təsirləri nəzərə alaraq müvafiq siyasət və ya təlimatları diqqətdə saxlayın.
- Rəqəmsal texnologiyaların etik istifadə qaydası barədə şübhəniz yaranarsa, rəqəmsal elm və innovasiya komandasına yaxud məlumatvermə kanallarımıza bu barədə məlumat verin.

Siyasi fəaliyyətlərlə bağlı mövqeyimiz

Tətbiq olunan qanunlara uyğun olaraq bp müvafiq məsələlərlə bağlı mövqeyini bildirmək hüququndan istifadə edir. Bir fərd kimi sizin şəxsi siyasi töhfələr vermək də daxil olmaqla, siyasi prosesdə şəxsən iştirak etmək hüququnuz var. Bununla belə, şəxsi baxışlarınız və hərəkətlərinizin bp şirkəti ilə əlaqəsi olmadığını açıq şəkildə bəlli etməlisiniz.

- Hər hansı siyasi namizəd və ya partiyanı dəstəkləmək üçün şirkətin maliyyə vəsaitləri yaxud resurslarından istifadə etməyin.
- Hər hansı lobbiçilik fəaliyyətinə daxil olmazdan əvvəl razılıq əldə edin.
- Şəxsi siyasi fəaliyyətlər bəzən bp şirkəti ilə maraqların toqquşmasına səbəb ola bilər. Siz və ya yaxın qohumunuz ictimai bir vəzifəni, yaxud bp şirkətinə və ya sizin bp şirkətindəki vəzifənizə təsiri ola biləcək siyasi bir vəzifəni qəbul etməyi planlaşdırırsınızsa və ya həmin vəzifəni tutmağa çalışırsınızsa, bu barədə birbaşa menecerinizə məlumat verin.

bp şirkətinin tələbləri və yardımçı resursları

Rəqəmsal etika qaydaları
Siyasi fəaliyyət

Biz atdığımız addımlara
göre cavabdehik

Prinsiplərimiz

Biz səhmdar dəyərimizi mühafizə edirik, aktivlərimizin və resurslarımızın qeydinə qalırıq, bundan əlavə, əməliyyatlarımız və fəaliyyət göstəricilərimiz barədə dürüst, cavabdeh və şəffaf davranış nümayiş etdiririk.

Biz bp şirkətinə qarşı fırıldaqçı fəaliyyətlərin aşkarlanması və onların qarşısının alınmasına proaktiv yanaşırıq.

bp şirkətinin tələbləri və yardımçı resursları

Məlumatları dəqiq və tam şəkildə qeydə alın

bp aktivlərinin qorunması

Daxili məlumatlara əsaslanan sövdələşmə

– Siyasət: Qrup üçün mühasibat uçotu və hesabat tələbləri
– Siyasət: İnformasiyamızın qorunması
– Siyasət: Daxili məlumat

Gözləntilərimiz

Məlumatları dəqiq və tam şəkildə qeydə alın və saxlayın

Biz hamımız maliyyə və qeyri-maliyyə məlumatlarının qeydə alınması prosesinə töhfə veririk. Maraqlarımızı və məxfiliyimizi müdafiə edərkən biz yaxşı və pis biznes və fəaliyyət göstəricilərimiz barədə açıq və dürüst olmalıyıq.

bp daxilində yaxşı qərarlar qəbul etmək, eləcə də maraqlı tərəflərimiz və ictimaiyyətə dəqiq və şəffaf məlumatların verilməsini təmin etmək üçün bu məlumatlar vacibdir.

- Elektron versiyalar da daxil olmaqla, sənədləri yaradan, saxlayan, mühafizə edən və ya məhv edən zaman tətbiq olunan qanunlara və bp şirkətinin tələblərinə əməl edin.
- Bütün əməliyyatlara tələblərə uyğun olaraq düzgün şəkildə səlahiyyət verilməsi, onların qeydə alınması, məlumat verilməsini təmin edin. Qeydlər ədalətli və dəqiq olmalıdır.
- bp adından hökumət və ya tənzimləyici orqan tərəfindən məlumat almaq üçün verilmiş sorğuya cavab verməzdən əvvəl lazımi daxili razılıqları əldə etdiyinizdən əmin olun.

bp aktivlərinin qorunması

Biz hamımız bp şirkətinin aktivlərini, o cümlədən obyektlərini, əmlakını və avadanlıqlarını, kompüterlərini, İT sistemlərini, məlumatlarını, korporativ imkanlarını və maliyyə vəsaitlərini zərər və ya fırıldaqçılıqdan qorumağa görə məsuliyyət daşıyırıq.

- Şirkət aktivlərinin zərər görməməsini, yanlış istifadə olunmamasını və ya itirilməməsini təmin etmək üçün müvafiq şəkildə davranın.
- İstifadəçi İD-lərinizi və şifrələrinizi etibarlı şəkildə saxlayın.
- Fişinq kimi kiber-hücumlara və dələduzluğa qarşı ayıq-sayıq olun və bp-yə məxsus məlumatların yaxud digər aktivlərin potensial və ya real itkisi də daxil olmaqla, hər hansı hadisə barədə dərhal məlumat verin.
- Kompüter avadanlığı, telefonlar, e-poçt və internetə çıxış işgüzar fəaliyyət məqsədləri üçün təmin edilmişdir və onlara bp şirkətinin kiber-hücumlara və zərərli fəaliyyətə qarşı mühafizə olunmasına kömək etmək üçün müntəzəm olaraq nəzarət olunur. Məhdud şəxsi istifadəyə icazə verilir.
- Məxfi məlumatlarla işləyərkən zəruri hallarda onları şifrələməyi unutmayın və həmin məlumatları yalnız səlahiyyətli istifadəçilər ilə paylaşın.
- bp-nin məlumatlarımızın qorunması siyasətinə uyğun olaraq, bp şirkətinə məxsus məlumatları həmin məlumat "ictimai" kimi təsnif edilmədiyi zaman, kənar şəxslərlə paylaşmayın. bp şirkətinə məxsus məlumatların yalnız biznes məqsədləri ilə istifadə edilməsini təmin edin, bp şirkətinə məxsus məlumatların şəxsi istifadə üçün silinməsinə icazə verilmir.
- Bizim əqli mülkiyyətimizi qoruyun və digərlərinin də əqli mülkiyyət hüquqlarına hörmətlə yanaşın.

Daxili məlumatlara əsaslanan sövdələşmədə iştirak etməyin

bp şirkəti haqqında ictimaiyyətə açıq olmayan məlumatdan xəbərdar ola bilərsiniz və bu, investorun bp-nin qiymətli kağızlarına investisiya qoymazdan əvvəl qərar verməsi üçün müvafiq məlumat ola bilər ("daxili məlumat"). Daxili məlumatdan qeyri-qanuni məqsədlərlə istifadə etmək cinayət əməli hesab edilir. Buraya özünüz üçün və ya başqası üçün təşkil etməyinizdən və öz mənfəətiniz üçün yaxud başqasının mənfəəti üçün etməyinizdən asılı olmayaraq, daxili məlumata əsaslanaraq səhmlərin və ya başqa qiymətli kağızların alınması yaxud satılması və ya hər hansı ticarətlə bağlı qərarın verilməsi daxildir.

bp barədə potensial daxili məlumatı əldə etmək imkanı olan işçilər "daxili məlumatlara malik şəxslər siyahısı"-na əlavə ediləcək və əlavə təlimatla təmin olunacaqlar.

- Heç vaxt əvvəlcədən razılıq almadan daxili məlumatı paylaşmayın.
- Daxili məlumata maliksinizsə, heç vaxt bp-yə məxsus qiymətli kağızları almayın və ya satmayın.
- Heç vaxt yalan məlumat yaymayın və ya birjada ticarəti həyata keçirilən qiymətli kağızların qiyməti barədə yalan məlumat yaymaq məqsədi olan fəaliyyətlərə daxil olmayın.
- Səhmləri birjada alınıb-satılan digər şirkətlərə münasibətdə daxili məlumatlarla bağlı eyni prinsiplərə əməl edin.
- Yadda saxlayın ki, siz artıq bp əməkdaşı olmadığınız zaman belə daxili məlumatlara əsaslanan sövdələşmələrlə bağlı qaydalar qüvvədə qalmağa davam edir.

Şübhəniz olarsa, Hüquq şöbəsi və ya şirkət katibinin ofisi ilə dəqiqləşdirin.

Əvvəlcədən təsdiq olmadan kodeksimizin heç bir hissəsindən imtina edilə bilməz. Məsuliyyətdən imtina haqları yalnız müstəsna hallarda təmin ediləcək. Məsuliyyətdən imtina üçün bütün sorğular etik normalar və tələblərə uyğunluq üzrə vitse-prezidentə yazılı şəkildə verilməlidir.

Kodeksimiz sizin əmək müqavilənizin heç bir şərt və müddəasını dəyişmir. Kodeks bp şirkətində hamıdan nə gözlənildiyi barədə məlumat verir və bizi cavabdehlik və hörmət göstərərək davranmaq üçün dəstəkləyir. Kodeksimizə əməl edilməməsi əmək müqaviləsinə xitam verilməsi də daxil olmaqla, intizam tədbirləri ilə nəticələnə bilər.

Kodeksimizin bu versiyası 1 yanvar 2023-cü il tarixində qüvvəyə minəcək.

Lüğət

Biznesdə Dürüstlük (BD)

Əlaqələr və Xarici İşlər (ƏXİ)

Etik Normalar və Tələblərə Uyğunluq (ENTU)

Etik norma və tələblərə uyğunluq üzrə əlaqələndirici şəxs (ENTUƏŞ)

Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTƏM)

Əməliyyat İdarəetmə Sistemi (ƏİS)

İnsanlar və Korporativ Mədəniyyət (İKM)

Əməyin təhlükəsizliyi və Əməliyyat Riski üzrə Təminat (ƏT və ƏRT)